**Hesabat formaları təkmilləşdirilir**

İqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan bir sıra vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdikləri vergi bəyannamələrində əməkhaqqı məbləğləri reallığı əks etdirmir, bəzən bir neçə dəfə aşağı göstərilir. İşçilərinin sayı, əmlakı və dövriyyəsinin həcmi daha çox olan bir sıra müəssisələrdə direktor, baş mühasib, menecer kimi vəzifələr üçün müəyyənləşdirilmiş əməkhaqları sıravi işçilər üçün müəyyən edilən məbləğlərlə eynilik təşkil edir. Bundan başqa, vergi ödəyicisi tərəfindən muzdlu işə cəlb edilməli olan, işin mahiyyətinin muzdlu iş hesab olunması üçün əhəmiyyətli əsaslar olan, lakin vergidən yayınmaq üçün müəssisə ilə işə cəlb olunan şəxs arasında mülki əqd əsasında müqavilələr bağlanılır (həmin şəxs sadələşdirilmiş vergi ödəyicisi kimi qeydiyyata alınır).

Bütün bunlar vətəndaşların sosial və əmək hüquqlarının, vergi və sosial qanunvericiliyin pozulması, eləcə də vergidən yayınma hallarına yol verilməsi ilə nəticələnir. Bu cür hallar, ilk növbədə, vətəndaşların sosial maraqlarının təmin olunmasına mənfi təsir göstərir, onları gələcəkdə sosial təminatdan məhrum etmiş olur.

Vergi ödəyiciləri tərəfindən muzdla işləyən işçilərə uçotdankənar əməkhaqqının verilməsi hallarının mövcudluğu əmək münasibətlərində vergi nəzarətinin daha da gücləndirilməsini zəruri edir. Göstərilən halların aradan qaldırılması və gəlir vergisi üzrə vergitutma bazasının leqallaşdırılması istiqamətində vergi orqanlarının da üzərinə böyük vəzifələr düşür. Məhz bu səbəbdən yaxınlarda Vergilər Nazirliyi tərəfindən  əmək münasibətlərinə vergi nəzarəti haqqında Konsepsiya hazırlanmış, Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə 3 saylı əlavə edilmişdir. Qeyd edək ki, Konsepsiya vergi nəzarəti tədbirləri ilə əhatə olunan vergi ödəyicilərində muzdlu işlə əlaqədar ödənilmiş gəlir vergisi üzrə uyğunsuzluqların araşdırılması və kənarlaşmalar üzrə fərdi yanaşma prinsipi əsasında vergilərin hesablanmasını müəyyən edir.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə Əlavə 3, Vergi Məcəlləsinin 98-ci və 150-ci maddələrinə əsasən, Azərbaycan Respublikasının ərazisində muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin ödəyicisi sayılan vergi ödəyiciləri tərəfindən tərtib edilir, ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən illik bəyannamə ilə birlikdə, digər vergi ödəyiciləri tərəfindən isə 4-cü rübün bəyannaməsi ilə eyni zamanda ləğvolunma və ya bu tədiyyə üzrə fəaliyyətini dayandırdığı tarixə bəyannamə ilə birlikdə təqdim edilir.

A.İBRAHİMOVA